# Dostoyevskaya Anna Qriqoryevnanın xatirələri

*əvvəli ötən saylarımızda*

Fyodor Mixayloviç mənə qarşı günü gündən daha da mehribanlaşırdı. Mənə tez-tez “göyərçin” (onun ən sevimli əzizləməsi), xeyirxah Anna Qriqoryevna, “mehriban” deyirdi. Bu sözləri mənə lətafətindən, mərhəmətindən dediyini düşünürdüm. Onun zəhmətini yüngülləşdirmək, kömək etmək, işimizin yaxşı getdiyini demək, romanı vaxtında çatdıra biləcəyimizə inandırmaqla Fyodor Mixayloviçdə ruh yüksəkliyi yaradırdım. Bu mənim çox xoşuma gəlirdi. Sevimli yazıçımın işinə kömək edə bildiyimə və həmçinin də onun əhval-ruhiyyəsinə yaxşı təsir etdiyimə görə qürurlanırdım. Bütün bunlar özümü öz gözlərimdə böyüdürdü.

Mən daha “məşhur yazıçıdan” qorxmur, onunla dayı, köhnə dost kimi sərbəst, rahat danışırdım. Fyodor Mixayloviçi həyatının müxtəlif hadisələri haqqında sorğu-suala tuturdum. O da həvəslə suallarıma cavab verirdi. Petropavlovsk qalasında keçirdiyi səkkiz aylıq dustaqlıq həyatından, orda o biri dustaqlarla divarı döyməklə necə danışdıqlarından ətraflı şəkildə danışırdı. Katorqadakı həyatından, onunla eyni vaxtda cəza çəkən digər cinayətkarlardan bəhs edirdi. Xaricdə olduğu vaxtlarını, səyahətlərini, görüşlərini, Moskvada yaşayan çox sevdiyi doğmalarını xatırlayırdı. Söz arasında əvvəllər evli olduğunu və həyat yoldaşının üç il bundan əvvəl dünyasını dəyişdiyini də dedi. Sonra qadının portretini göstərdi. Qadın xoşuma gəlmədi. Onun dediyinə görə, ağır xəstə olub ömrünün son bir ilini qorxunc, hətta ölü kimi imiş. Və söhbət əsnasında öyrəndim ki, mənim xoşuma gəlməyən, nəzakətsiz oğlan sən demə Fyodor Mixayloviçin öz oğlu deyilmiş. Arvadının Aleksandr İvanoviç İsayevlə birinci nikahdan dünyaya gətirdiyi oğlulluğu imiş. Düzü, bu xəbər xoşuma gəldi. Fyodor Mxayloviç tez-tez ağır maddi vəziyyətindən, pulsuzluğundan gileylənirdi. Gələcəkdə onun bu maddi sıxıntılarının şahidi olmaq da qismətimdə oldu. (Bura gəlişlərimin birində Fyodor Mixayloviçə Sibirdəki dostlarının hədiyyəsi olan çox gözəl bir Çin vazının yoxa çıxdığını sezdim. Soruşdum: “Vaza sınıb?” - Yox, sınmayıb, - Fyodor Mixayloviç cavab verdi, - girov qoymuşuq. Təcili iyirmi beş rubla ehtiyac yarandı, vazanı girov qoymaq məcburiyyətində qaldım”. Üç gündən sonra o biri vaza da yoxa çıxdı. Bir başqa vaxtda isə yazını bitirib çıxanda açılmış süfrədə taxta qaşıqları görüb zarafatyana dedim: “Bilirəm ki, bu gün qarabaşaq yeyəcəksiniz”. - “Nədən bu qənaətə gəldiniz ki?” - Qaşıqlardan bildim. Axı deyirlər ki, qarabaşaqı taxta qaşıqla yeyəndə daha da dalı olur”. - “Səhv etdiniz: pul lazım oldu, gümüş qaşıqları girov qoymalı olduq”.

Maddi çətinliklərinə Fyodor Dostoyevski hər zaman olduqca sakit qarşılayırdı.)

Fyodor Mixayloviçin söhbətləri elə kədərli xarakter daşıyırdı ki, bir dəfə mən dözməyib soruşdum:

- Fyodor Mixayloviç, niyə axı həmişə kədərli şeyləri danışırsız? Ondansa yaxşı şeyləri - xoşbəxt olduğunuz anları xatırlayın.

- Xoşbəxt? Mən hələ xoşbəxt olmamışam axı. Hər halda, arzuladığım xoşbəxtliyə hələ çatmamışam. Mən onu gözləyirəm. Bu günlərdə dostum baron Vrangelə məktubumda yazmışdım ki, başıma gələn faciələrə baxmayaraq, mən yeni və xoşbəxt həyata başlamaq arzusundayam.

Bunu eşitmək mənim üçün çox ağır oldu! Artıq bir xeyli yaşı olan, istedadlı və xeyirxah bir adamın arzuladığı xoşbəxtliyi hələ də əldə etməməsi çox qəribə idi.

Bir dəfə Fyodor Mixayloviç Anna Vasilyevna Korvin-Krukovskaya ilə necə nişanlandığını, bu cür gözəl, ağıllı və istedadlı qızdan razılıq alanda necə sevindiyini və bir yerdə xoşbəxtliklərinin mümkün olmadığı anlayanda necə çox kədərləndiyi haqda da danışdı.

Bir dəfə Fyodor Mixayliviç olduqca gərgin əhvalda idi. Mənə hal-hazırda üç yol qarşısında dayandığını söylədi: “ya mən gərək Şərqə - Konstantinopola, Yerusəlimə gedəm və bəlkə də, həmişəlik orda qalam, ya gərək xaricə gedib ömrümü ruletkaya həsr edəm, ya da ki, ən nəhayət, ikinci dəfə evlənərək xoşbəxtliyimi, sevincimi ailədə axtarıb tapam”. Uğursuz gətirmiş həyatını kökündən dəyişmək üçün verəcəyi qərar onu çox narahat edirdi. Məni özünə dost bilən Fyodor Mixayloviç fikrimi soruşdu. Boynuma alım ki, onun bu cür səmimi sualı məni bir xeyli çətinə saldı. Onun Şərqə getməyi, orda qumara qurşanmağı fikri, düzünü desəm, mənə bir az fantastik kimi gəldi. Tanışlarımdan, qohumlarımdan ailədə xoşbəxt olanları xatırlayıb ona ikinci dəfə evlənib ailədə xoşbəxtliyini tapmağı məsləhət gördüm.





- Siz düşünürsüz ki, - Fyodor Mixayloviç soruşdu, - mən yenə də evlənə bilərəm? Yəni kimsə mənə ərə gəlməyə razı olar? Mən necə bir qadınla evlənim: ağıllı, yoxsa xeyirxah?

- Əlbəttə ki, ağıllı.

- Yox, seçim qarşısında qalsam, xeyirxah xanımla evlənəcəm ki, məni əzizləyib, sevsin.

Nəzərdə tutulan evliliyi ilə bağlı Fyodor Mixayloviç məndən niyə ərə getmədiyimi soruşdu. Cavabımda iki nəfərin elçiliyə gəldiyini, hər ikisinin də çox gözəl insan olduğuna baxmayaraq, heç birinə qarşı hissimin olmadığını və ancaq sevdiyim adamla ailə qurmaq istədiyimi bildirdim.

- Mütləq şəkildə sevgiylə evlənmək lazımdır, - Fyodor Mixayloviç məni dərhal dəstəklədi, - ailənin xoşbəxt olması üçün ancaq hörmət kifayət etmir!

**IV**

Oktyabr ayının ortalarıydı. İş zamanı kabinetin qapısında gözlənilmədən A.N.Maykov (rus şairi - 1821-1897) peyda oldu. Mən onun portretlərini görmüşdüm. Ona görə dərhal tanıdım.

- Yaman patriarxal yaşayırsınız ha, - Fyodor Mixayloviçə zarafatla dedi, - pillələnlərdəki qapı açıqdır, qulluqçular gözə dəymir, lap bütün evi oğurlamaq olar!

Fyodor Mixayloviç, deyəsən, Maykovu görüb sevindi. O, bizi tanış etməyə tələsdi və məni onunla canlabaşla işləyən əməkdaşı kimi təqdim etdi. Apollon Nikolayeviç soyadımı eşidən kimi bu yaxınlarda dünyasını dəyişən yazıçı Snitkinlə qohum olub olmadığımla maraqlandı. (O zamanlar yazıçılarla görüşdə hamının verdiyi sual idi.) Sonra isə işimizə mane olmamaq üçün getməyə tələsdi. Mən fasilə verməyi təklif etdim və Fyodor Mixayliviç Maykovu yan otağa apardı. Onlar hardasa iyirmi dəqiqə söhbətləşdilər. Mənsə vaxtdan istifadə edib qeydlərimi köçürməyə başladım.

Maykov sağollaşmaqdan ötrü kabinetə qayıtdı və Fyodor Mixayloviçdən xahiş etdi ki, mənə nəsə yazdırsın. O zamanlar stenoqrafiya işi bir yenilik idi və bu hamını maraqlandırırdı. Fyodor Mixayloviç onun arzusunu yerinə yetirdi və romandan yarım səhifə diktə etdi. Mən dərhal etdiyim qeydləri oxudum. Maykov stenoqramı diqqətlə gözdən keçirərək təkrarlayırdı:

- Mən burdan heç nə başa düşə bilmirəm!

Apolon Nikolayeviç mənim çox xoşuma gəldi. Mən əvvəllər onu bir şair kimi də çox sevirdim, Fyodor Mixayloviçin Maykovun ünvanına yaxşı sözlər deyib tərifləməsi onunla bağlı xoş təəssüratlarımı daha da möhkəmləndirdi.

Vaxt getdikcə Fyodor Mixayloviç işə daha da çox aludə olurdu. İndi daha əvvəlki kimi yerindəcə düşünüb bədahətən demirdi. Axşamdan qaralamada qeydlər edir, gündüz əlyazmasından mənə oxuyurdu.

Bəzən o elə çox yazırdı ki, gecə yarıya qədər orda qalmalı olurdum. Amma bunun müqabilində səhəri gün yazılmış səhifələrin sayını ona böyük təntənə ilə elan edirdim. İşimizin uğurla getdiyini, vaxtında bitirə biləcəyimizi deyəndə Fyodor Mixayloviçin üzündəki sevincli təbəssümü görmək çox xoş olurdu.

Hər ikimiz yeni romanın içində idik. Mənim də, Fyodor Mixayloviçin orda sevdiyimiz və sevmədiyimiz qəhrəmanlarımız vardı. Var-dövlətini uduzan nənə və mister Astley rəğbətimi, Polina və qorxaqlığına, ruletkaya olan həvəsinə görə qınadığım romanın baş qəhrəmanı isə məndə nifrət yaratmışdı. Fyodor Mixayloviç isə stenamilə “oyunçunun” tərəfində idi və onun hiss və təəssüratlarından çoxunu özü də yaşadığını deyirdi. Deyirdi ki, güclü xarakterə malik olan, bunu həyatıyla sübut edən insan, bəzən ruletka oynamaq həvəsindən əl çəkə bilmir.

Bəzən romanla bağlı fikirlərimi, düşüncələrimi söylədiyimə və bu cür istedadlı bir yazıçının, az qala uşaqcasına irad və düşüncələrimi dediyimdə məni səbirlə dinləməsinə təəccüblənirdim. İşlədiyimiz bu üç həftə ərzində indiyə qədər olan bütün maraqlarım ikinci plana keçdi. Olxinin razılığı ilə stenoqrafiya dərslərinə daha getmirdim, tanışlarımla nadir hallarda görüşürdüm, bütün diqqətimi işə, yalnız işə və fasilələrdə olduqca maraqlı söhbətlərimizə yönəltmişdim. Özümdən asılı olmayaraq, Fyodor Mixayloviçi ətrafımda olan, tanıdığım cavanlarla müqayisə edirdim. O biri adamların söhbətləri sevimli yazıçımın etdiyi yeni və orijinal söhbətlərin yanında necə də boş və mənasız görünürdü.

Yeni ideyaların təəssüratı altında ordan ayrılıb evə gələndə darıxırdım və Fyodor Mixayloviçlə yeni görüşü səbirsizliklə gözləyirdim. İşimizin artıq yekunlaşmaq üzrə olduğunu və bu səbəbdən də görüşlərimizin sona çatmasına az qaldığını düşünəndə kədərlənirdim. Məni narahat edən bu hissin eynisini Fyodor Mixayloviç də deyəndə çox sevinmişdim.

- Anna Qriqoryevna (Ayın axırında Fyodor Mixayloviç adımı axır ki, yadında saxladı. Yoxsa həmişə unudur, adımı yenidən soruşurdu.), bilirsinizmi nə düşünürəm? Baxın biz necə də gözəl bir-birimizi anlayırıq, hər gün görüşürük, mehribanıq, maraqlı söhbətlər edirik. Romanın bitməsiylə yeni bütün bunlar da bitəcəkmi? Düzünü desəm, heyf! Həmişə yeriniz görünəcək! Mən sizi harda görəcəm?

- Fyodor Mixayloviç, - dedim mən, - dağ-dağa rast gəlmir, amma insanın insanla görüşməsi çətin məsələ deyil.

- Yaxşı, bəs harda?

- Cəmiyyət içində, teatrda, konsertdə...

- Siz bilirsiniz axı. Mən cəmiyyət içində, teatrda az-az hallarda oluram. Həm də ki, danışa, söhbət edə bilməyəcəyimiz görüş nə görüşdür ki? Siz niyə məni evinizə, ailənizin yanında dəvət etmirsiniz ki?

- Gəlin, biz buna çox sevinərik. Amma bircə anamla mənim sizin üçün maraqsız həmsöhbət olacağından qorxuram.

- Mən nə vaxt gələ bilərəm?

- İşimiz bitəndə bu haqda danışarıq, - dedim, - indi bizim üçün ən başlıca iş romanı vaxtında bitirib təhvil verməkdir.

Artıq noyabrın biri - Stellovskiyə romanın təhvil verilməsinin vaxtı yaxınlaşırdı və onun nəsə bir hiylə işlədəcəyi, hər hansı bir bəhanəylə əlyazmanı deyilən tarixdə götürməyəcəyi fikri Fyodor Mixaloviçdə böyük narahatlıq doğururdu. Mən Fyodor Mixayloviçi mümkün qədər sakitləşdirir və belə olacağı təqdirdə nə etmək lazım olduğunu öyrənəcəyimə söz verdim. Həmin axşam anamı tanış bir vəkilin yanına gedib məsələylə bağlı məsləhət almağı xahiş etdim. O isə əlyazmanı həmin gün ya notariusa, ya da Sellovskinin yaşadığı ünvanın ərazisindəki pristava rəsmi bir şəxsin imzası altında verməyi məsləhət gördü. Hakim Freyman (sinif yoldaşının qardaşı) da Fyodor Mixayloviçə eynən bunu demişdi.

*ardı var*

**Rus dilindən tərcümə edən: Xanım Aydın**